**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNTUİSİYANIN İDRAKİ FUNKSİYASI

İxtisas: 7201.01 – Bilik fəlsəfəsi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Gülşən Fazil qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *fəlsəfə elmləri doktoru, professor*
**Fərman Qəhrəman oğlu İsmayılov**

**Rəsmi opponentlər:** *fəlsəfə elmləri doktoru, professor*
**Qoşqar Cəlal oğlu Əliyev**

*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Azad Cəfər oğlu Cəfərov**

*fəlsəfə üzrə fəlsəfə doktoru*
**İlham Əbülfət oğlu Abbasov**

Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş BFD 4.10 Dissertasiya Şurası Dissertasiya Şurasının sədri:

Fəlsəfə elmləri doktoru, professor
**Əziz Bəşir oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi:

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent əvəzi
**Gülnarə Yusif qızı Yusifova**

İmzanı təsdiq edirəm
BAKI DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ KATİBİ
prof. V.M.SALMANOV
(imza)
«21» 02 2022 il

Elmi seminarın sədri:

Fəlsəfə elmləri doktoru, professor
**Qabil İsmixan oğlu Hüseynov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İntuisiya problemi bütün fəlsəfə tarixi boyu aktual mövzulardan olmuşdur. Problemi fəlsəfə üçün daimi aktual edən məqam ondan ibarətdir ki, intuisiya ilə əlaqədar irəli sürülən metaforaların, ən müxtəlif formalar alan analogiyaların və tariflərin bolluğuna baxmayaraq, bu fenomenin hamı tərəfindən qəbul edilən vahid bir izahı bu günə qədər mövcud deyildir. İntuisiyanın təbiəti və aşkarlanma formaları elmi fiksasiya üçün çətin obyektlərdir. Lakin öyrənilmə çətinliklərinə baxmayaraq bu və ya digər aspektdən ən müxtəlif elm sahələrininin mütəxəssisləri tərəfindən problemin tədqiqinə həsr olunan ədəbiyyatın sayı durmadan artır ki, bu da öz növbəsində intuisiya probleminin periodik olaraq yenidən mənalandırılması zərurətini ortaya gətirir.

Hazırda intuisiya probleminə müasir marağı şərtləndirən əsas amillərdən biri ənənəvi rasionalist metodologiyanın böhranı ilə bağlıdır. Müasir elm dar çərçivəli rasionalizmdən imtina edərək daha konstruktiv rasional metodologiyaların formalaşdırılmasında maraqlıdır. İntuitiv idrak bu gün gerçəkliyin sərt determinə olunmuş modellərinin sərhədlərini aşmağa yönəlikli postqeyriklassik elm paradiqması ilə səsləşir.

Problemin aktuallığını şərtləndirən digər bir məqam müasir cəmiyyətin postindustrial inkişaf perspektivinin gerçəkləşdirliməsi qayğıları ilə bağlıdır. “Bilik cəmiyyəti” və ya “informasiya cəmiyyəti” adlandırılan postindustrial transformasiya layihəsi əmək qüvvəsinin yaradıcılıq potensiyasına (kreativliyinə) qarşı yeni-yeni tələblər irəli sürməkdədir. Bu isə idrak nəzəriyyəsi problemlərinin sosial əhəmiyyətini xeyli dərəcədə yüksəldir. Aydındır ki, bilik istehsalı yaradıcılıq prosesi olmadan təşkil oluna bilməz. Yaradıcılıq isə bizi bir daha intuisiya probleminin aktuallığına qaytarır.

**Problemin öyrənilməsini** aktual edən başqa bir məqam da Azərbaycan fəlsəfi elmində problemin xüsusi olaraq öyrənilməməsidir. Halbuki ictimai şüurun son onilliklərdə məruz qaldığı ideoloji dəyişikliklər idrakın bu vacib vasitəsinin yenidən fəlsəfi mənalandı-

rılmasını şərtləndirir. Bu gün müstəqilliyini bir daha əldə etmiş Azərbaycan sürətli və dərin modernləşmə strategiyasını qəbul etmişdir. Dərin modernləşmənin bir aspekti də, fikrimizcə, müasir cəmiyyətin hərtərəfli formalaşmasında bu və ya digər dərəcədə iştirak edən təməl fəlsəfi anlayışların ictimai şüurda yenidən ön plana çəkilməsini və aktuallaşdırılmasını tələb edir. Bu baxımdan, hazırkı tədqiqat bu sahədə mövcud boşluğu, cüzi də olsa, azaltmağa xidmət edir.

İntuisiya probleminə hələ qədim Şərq və Qərb fəlsəfi təlimlərində nəzəri tədqiqatın obyekti qismində rast gəlinir. Əksər hallarda ətraflı izah olunmasa da, istər Qədim Şərq, istər antik, istərsə də orta əsr filosoflarının əsərlərində intuisiya probleminin bu və ya digər formada əks olunması təsbit olunmuşdur. Platonun əsərlərində intuisiya anamnesis (xatırlama) akti vasitəsi ilə əzəli ideyaların dərk qabiliyyəti kimi bilinir.[1] Aristoteldə isə intuitivlik nə hissi, nə də diskursiv təfəkkürə müyəssər olmayan ümuminin dərki qabiliyyəti ilə bağlanır.[2] İntrospeksiya vasitəsi ilə ruhun öz-özünü dərk etməsi ideyası Plotin fəlsəfəsində intuisiya vasitəsi ilə gerçəkləşdirilirdi və bu konsepsiya xristian teologiyasında da problemin sonrakı tədqiqi üşün zəmin rolunu oynamış oldu.[3] Orta əsrlərdə intuisiya Allahın və ruhun inam vasitəsi ilə dərki ideyasına bağlanmış şəkildə şərh edilir.[4]

Qədim Şərq fəlsəfəsində də intuisiya problemi oxşar mövqelərdən izah edilirdi. Beləcə, Lao Tzsı daonun dərki üçün gərək olanın u-vey – "heç nə eləməmək" olduğunu göstərir. Əslində bu dərkin təfəkkür manipulyasiyaları dolayısı ilə deyil, bilavasitə, yəni intuitiv

---

[1] Платон. Сочинения: [в 3 томах]. – Москва: Мысль, – т. 1. – 1968; Платон. Сочинения: [в 3 томах]. – Москва: Мысль, – т. 2. – 1970.

[2] Аристотель. Собрание сочинений: [в 4 томах] – Москва: Мысль, – т. 1. – 1976.

[3] Антология мировой философии: [в 4 томах]. – Москва: Мысль, – т. 1. ч. 1 и 2, Философия древности и средневековья, – 1969.

[4]Антология мировой философии: [в 4 томах]. – Москва: Мысль, – т. 1. ч. 1 и 2, Философия древности и средневековья, – 1969; Августин Блаженный. Творения: Научно-популярное издание: [в 4 томах] / Августин Блаженный. – Киев: УЦИММ-пресс, – т. 1. Теологические трактаты. – 2000.

baş verəcəyini nəzərdə tuturdu.[5] Orta əsrlərdə islam fəlsəfi fikrində Əl-Farabi, İbn-Sina, Bəhmənyar, İbn-Ərəbi, N.Tusi və b. öz əsərlərində yeni biliyin əldə edilməsində intuisiyanın müstəsna rolunu qiymətləndirir, onu yaradıcı fəhm, əqlarxası mərhələ adlandırırdılar.[6] İbn-Ərəbi biliyin əldə olunmasında Allahın iştirakını (lütfünü) zəruri hesab edir və burada intuisiyanın gözlənilməzliyini bu "müdaxilə" ilə izah edirdi.[7]

Yeni dövrün rasionalizmində intuisiya insan idrakının ali dərketmə qabiliyyətini əks etdirir və əsas etibarı ilə intellektual səciyyə daşıyır.[8] Alman fəlsəfəsinin G.Hamann və H.Yakobinin təmsil etdikləri sensualizmdə irrasionalizmin əsasları görünür. Burada göstərilir ki, intuisiya idrakın deyil, duyğu və inamın vasitəsi ilə mümkün ola bilər.[9] Hissi intuisiya təsəvvürləri İ.Kantın fəlsəfəsinə də xasdır.[10] Transsendent olanın dərkində intuisiyanın belə gücsüz olduğunu göstərən İ.Kant, buna baxmayaraq, intuisiyanı insana müyəssər yeganə dolğun idrak forması olduğu qənaətində idi.

---

[5] Дао дэ Цзин. Книга пути и благодати / Дао дэ Цзин. – Москва: Эксмо, – 2009.

[6] Tusi Xacə Nəsirəddin. Şərh "Əl - İşarat" / Tərc.ed. Söhrab Bayramov / Xacə Nəsrəddin Tusi. – Bakı: Nurlan, – 2004; Şükürov, A.M.Şərq fəlsəfəsi və filosofları / A.M.Şükürov. – Bakı: Əbilov, Zeynalov və oğullar, – 2005; Məmmədov, Z.C. Azərbaycan fəlsəfəsi tarixi / Z.C.Məmmədov. – Bakı: Bilik, İrşad mərkəzi, – 1994.

[7] Смирнов, А.В. Великий шейх суфизма (опыт парадигмального анализа философии Ибн Араби) / А.В.Смирнов. – Москва: Наука (издательская фирма «Восточная литература»), – 1993, – с. 39.

[8] Декарт, Р. Избранные произведения / Р.Декарт. – Москва: Политиздат, – 1950; Лейбниц, Г. Сочинения: [в 4 томах] / Г.Лейбниц. – Москва: Мысль, – т. 1. – 1982; Лейбниц Г. Сочинения: [в 4 томах] / Г.Лейбниц. – Москва: Мысль, – т. 2. – 1982; Спиноза, Б. Избранные произведения (серия «Выдающиеся мыслители») / Б.Спиноза. – Ростов-на-Дону: Феникс, – 1998; Локк, Дж. Сочинения: [в 3 томах]. – Москва: Мысль, – т. 1. – 1985; Локк, Дж. Сочинения: [в 3 томах]. – Москва: Мысль, – т. 2. – 1985; Юм, Д. Сочинения: [в 2 томах] / Д.Юм. – Москва: Мысль, – т. 1. – 1966.

[9] Антология мировой философии: [в 4 томах]. – Москва: Мысль, – т. 3, Буржуазная философия конца XVIII в.- первых двух третей XIX, – 1971.

[10] Кант, И. Критика чистого разума / И.Кант / Пер. с нем. Н. Лосского. – Минск: Литература, – 1998.

İ.Kant intellektual intuisiyanın da mövcudluğunu qəbul edirdi, lakin bu qabiliyyəti yalnız Allaha məxsus keyfiyyət kimi səciyyələndirirdi.

Klassik alman fəlsəfəsinin digər nümayəndələri İ.Fixte, F.Şellinq, G.Hegel intuisiyanın dialektik interpretasiyasını təklif etdilər və bu da öz növbəsində bilvasitə ilə bilavasitə yaranan biliyin (intuisiyanın) vəhdətinin dərkinə zəmin hazırlamış oldu.[11]

A.Şopenhauerin irrasionalist fəlsəfəsində intuisiya - iradənin iştirakı olmadan əşyaların mahiyyətinin dərki qabiliyyətidir və idrak obyekti ilə bilavasitə əlaqəni təmin edir.[12] Lakin irrasionalizmin sonrakı inkişafı intuisiyanın təbiətinin və mahiyyətinin hissi sferada axatarılmasına gətirib çıxartdı ki, bu təmayülü biz B.Kroçe, A.Berqson və N.O.Losskinin əsərlərində görürük.[13]

Zəkanın imkanlarını nəzərdən keçirən A.Berqson onu inkişafda olan gerçəkliyin obyektiv dərki baxımından yetərsiz hesab edir. Filosofun fikrincə, intellekt cansız təbiətin dərkində müəyyən uğur qazansa da, canlı həyatın dərki qarşısında gücsüzdür. Praktiki qaydaların əldə olunmasına yönələn elmi bilik hadisələrin mahiyyətini əks etdirməkdə acizdir. Zamanla dəqiqləşdirilən və konkretləşdirilən elmi anlayışlar varlığın bütün fəliyyətini və

---

[11] Фихте, И.Г. Сочинения: [в 2 томах]. – Санкт-Петербург: Мифрил, – т. 1. – 1993; Фихте, И.Г. Сочинения: [в 2 томах]. – Санкт-Петербург: Мифрил, – т. 2. – 1993; Фихте, И. Г. Сочинения: работы 1792-1801 гг. / И.Г.Фихте. – Москва: Научно-издательский центр «Ладомир», – 1995; Шеллинг, Ф. Сочинения: [в 2 томах] / Ф.Шеллинг. – Москва: Мысль, – т. 1. – 1987; Юнг, К. Психологические типы / К.Юнг. – Санкт-Петербург: Ювента, – 1995; Гегель. Энциклопедия философских наук: [в 3 томах] / Гегель. – Москва: Мысль, – т. 2. Философия природы. – 1975; Гегель. Энциклопедия философских наук: [в 3 томах] / Гегель. – Москва: Мысль, – т. 3. Философия духа. – 1977.

[12] Шопенгауэр, А. Собрание сочинений: [в 5 томах] / А.Шопенгауэр. – Москва: Московский клуб, – т. 1. Мир как воля и представление. – 1992; Алейник, Р.М. Шопенгауэр: деконструкция Канта // – Москва: Историко-философский альманах, Выпуск 1-й, Кант и современность, – 2005, – с. 189-198.

[13] Кроче, Б. Антология сочинений по философии. История. Экономика. Право. Этика. Поэзия / Б.Кроче / Пер. составлен, коментар. С.Мальцевой. – Санкт-Петербург: Пневма, – 1999; Бергсон, А. Творческая эволюция. Материя и память / А.Бергсон. –Минск: Харвест, – 1999; Ошо, Р. Интуиция. Знание за пределами логики / Р.Ошо. – Санкт-Петербург: Весь, – 2002.

dəyişkənliyini əks etdirmək iqtidarında deyillər. Obyektiv, həqiqi biliyi yalnız praktikanın məqsədlərindən tamamilə uzaqlaşaraq, xalis seyr yaxud intuisiya vasitəsi ilə əldə etmək olar.

Fəlsəfi intuitivizm E.Hüsserl[14] və M.Şelerin fəlsəfəsinə[15] də xas idi. Burada, fenomenoloji reduksiya aktında transsendent dünyanın fenomenləri intuitiv biliyin köməyi ilə dərk olunur. E.Hüsserldə intuisiya rasional, M.Şelerdə isə hissi xarakter daşıyır.

Rus fəlsəfəsində intuisiyanın ilk sistematik tədqiqini biz N.O.Losskinin əsərlərində görürük.[16] Filosofun fikrincə, həqiqi idrak prosesi zamanı subyektlə obyekt arasında ayrılıq itir və xarici aləm daxili aləmin bir hissəsi kimi qavranılır. N.Losski hesab edir ki, dünya dualistikdir onun bütövlüyün və təkamülünün əsası kimi isə Allah çıxış edir. S.L.Frank[17] N.O.Losskinin idrak nəzəriyyəsini inkişaf etdirərək əsas diqqəti intuisiyanın ontoloji şərtlərinin açılmasına yönəldir. Onun fəlsəfəsində intuisiya gerçəkliyin bilavasitə qavranılmasına, idrak prosesində insana bir bütövlük kimi çıxış etməyə imkan verən qabiliyyət kimi aşkarlanır.

S.İ.Vavilov intuisiyanı tədqiqatın nəticəsini əvvəlcədən deməyə imkan verən qabiyyət adlandırırdı.[18] V.F.Asmus bilavasitəliyi,[19] V.M.Kovalqin gözlənilməzliyi,[20] digərləri isə qeyri-şüuriliyi intuisiyanın əsas əlaməti kimi təhlil edirlər. A.Q.Spirkinə görə, intuisiya bir an içərisində obyektin bütöv bir tam kimi mahiyyətini əhatə edə bilir.

---

[14] Гуссерль, Э. Философия как строгая наука / Э.Гуссерль. – Новочеркасск: Агентство «Сагуна», – 1994.

[15] Шелер, М. Избранные произведения / М.Шелер. – Москва: Гнозис, –1994.

[16] Лосский, Н.О. Чувственная, интеллектуальная и мистическая интуиция / Н.О.Лосский / Сост. А.П. Поляков; Подгот. текста и примеч. Р.К.Медведевой. – Москва: Республика, – 1995.

[17] Франк, С.Л. Реальность и человек. Метафизика человеческого бытия / С.Л.Франк. – Киев: Науково Думка, – 2010.

[18] Вавилов, С.И. Проблемы познания / С.И.Вавилов. – Москва: Гардарики, – 1993, – с. 59.

[19] Асмус, В.Ф. Проблема интуиции в философии и математике очерк истории: XVII – начало XX в.: [Электронный ресурс]. URL: http://psylib.ukrweb.net/books/asmus01/index.htm

[20] Ковалгин, В. М. Раскрывая тайны психики / В.М.Ковалгин. – Минск: Беларусь, – 1968.

Bu işi elə sürətlə görür ki, rasional məntiq ona çata bilmir.[21] Berqson intuitivizminin tənqidçilərindən olan P.V.Kopnin Berqsondan fərqli olaraq rasionalizmin acizliyini deyil, elmi idrak prosesindəki obyektiv çətinliklərin həqiqi mövcudluğunu iddia edir.[22] V.P.Branskinin fikrincə isə, intuisiya bilavasitə müşahidə vasitəsilə qavranılmayan obyektlərin əyani təssəvvürlərini və ya obrazlarını yaratmaq qabiliyyətidir.[23]

M.Bunqe öz tədqiqatlarında intuisiyaya xeyli yer ayırmış, maraqlı fikirlər irəli sürmüşdür.[24] Onun fikrincə, intuitivlik, fasiləsizlik və diskretlilik heç bir məna kəsb etmir və o hər bir təlimin fərdi xüsusiyyətlərindən, onunla bağlı olan bacarıq və təcrübələrdən asılıdır.

A.S.Karmin və E.P. Xaykin intuisiya aktını qeyri-məntiqi proses və ya «məntiqi vakuum» adlandırır. İntuisiyanın növlərinin fərqləndirilməsinə dair onların əhəmiyyətli fikirləri var. Onlar intuisiyanın iki əsas formasını göstərirlər: eydetik və konseptual intuisiya.[25] V.P.İrina və A.A.Novikovun fikrincə isə, intuisiya nəticəsində xüsusi bir bilik növü meydana çıxır və bu gizli, anlaşılmaz sayılan biliyi bu filosoflar kriptoqnoz (krytos-gizli, gnosis-bilmək) bilik adlandırırlar.[26]

İntuisiyanın koqnitiv yanaşma şərçivəsində müasir tədqiqinə biz V.A.Lektorskinin, D.İ.Dubrovskinin, İ.P.Merkulovun, M.A.Xolodnoyun, A.L.Nikiforovun,V.K.Finnin, V.P.Zinçenkonun və başqalarının əsərlərində rast gəlirik.[27] E.N.Knyazeva və S.P.Kurdyumov

---

[21] Спиркин, А.Г. Философия: Учебник для технических вузов / А.Г.Спиркин. – Москва: Гардарики, – 2000.

[22] Копнин, П.В. О национальном и иррациональном // Вопросы философии, – 1968. № 5, – с. 99-115.

[23] Бранский, В.П., Никитин, В.Е. Альтернатива «сциентизм-антисциентизм» и современная философия науки // Наука и альтернативные формы знания. Межвузовский сборник, – Санкт-Петербург, – 1995.

[24] Бунге, М. Интуиция и наука / М.Бунге. – Москва: Прогресс, – 1967.

[25] Кармин, А.С. Творческая интуиция в науке / А.С.Кармин, Е.П.Хайкин. – Москва: Наука, – 1971.

[26] Ирина, В.Р. В мире научной интуиции / В.Р.Ирина, А.А.Новиков. – Москва: Наука, – 1978, – с. 123-125.

[27] Когнитивный подход. Научная монография / Отвю ред. академик РАН В.А. Лекторский. – Москва: «Канон +», – 2008; Искусственный интеллект: меж-

isə intuisiyanın mahiyyətini sinergetik metodologiyanın nöqteyi-nəzərindən təhlil etmişlər.[28] S.İ.Qrişunin öz monoqrafiyasında intuisiya modellərini, intuisiyanın köməyi ilə həll edilən problem tiplərini, proqnozlaşdırmada intuisiya məqamını, yaradıcılığın fəallaşdırılması və intuitiv təfəkkürün təkmilləşdirilməsi metodlarını nəzərdən keçirir.[29] A.V.Popovkin isə şərq fəlsəfi sistemlərində intuisiyanın mövqeyini müqayisəli təhlil etmişdir.[30] A.Y.Panasyuk intuisiya fenomeninin açılmasına qeyri-şüurinin mahiyyətinin açılması vasitəsi ilə yanaşır və onların sinonimliyini iddia edir.[31] D.Mayers "İntuisiya:imkanlar və təhlükələr" adlı monoqrafiyasında intuisiyanın müasir praktikada tətbiqinin qiymətləndirilməsi problemini araşdırır.[32] Digər bir müasir tədqiqatçı M.L.Şults isə insanın psixoloji sağlamlığının əldə olunmasında, onun idrak, bədən və emosiyaları arasında harmoniyanın tapılması prosesində intuitiv məqamın iştirak dərəcəsini müəyyənləşdirməyə çalışmışdır.[33]

Müasir dövr Azərbaycan filosoflarından S.Xəlilov, C.Əhmədli, İ.Rüstəmov, Y.Rüstəmov, A.Şükürov, Z.Məmmədov, A.Hacıyeva və b. öz tədqiqatlarında intuisiya mövzusuna ən müxtəlif rakurslardan

---

дисциплинарный подход / Под ред. Д.И. Дубровского и В.А. Лекторского. – Москва: ИИнтеЛЛ, – 2006; Дубровский, Д.И. Информация, сознание, мозг / Д.И.Дубровский. – Москва: Высшая школа, – 1980; Холодная, М.А. Психология интеллекта. Парадоксы исследования / М.А.Холодная. – Санкт-Петербург: Питер, – 2002.

[28] Князева, Е.Н., Курдюмов, С.П. Интуиция как самодостраивание // Вопросы философии, – 1994. №2, – с. 110-112; Князева, Е.Н. Основания синергетики. Режимы с обострением, самоорганизацией, темпомиры / Е.Н.Князева, С.П.Курдюмов. – Санкт-Петербург: Алетейа, – 2002.

[29] Гришунин, С.И. Возможна ли современная наука без интуиции: Модели творческой интуиции в контексте науки, философии и прогнозирования / С.И.Гришунин. – Москва: Издательство ЛКИ, – 2008.

[30] Поповкин, А.В. К осмыслению опыта мистической интуиции в традициях восточной метафизики и русского интуитивизма // Религиоведение, – 2005. №1, – с. 38-51.

[31] Панасюк, А.Ю. Психология подсознания: все о подсознании человека / А.Ю.Панасюк. – Ярославль: Ин-Фолио, – 2010, – с. 268-279.

[32] Майерс, Д. Интуиция: Возможности и опасности / Д.Майерс. – Санкт-Петербург: Питер, – 2011.

[33] Contrat. Logistique et intuition / Contrat. – P., – 1972.

toxunmuşlar.[34] Ə.Məmmədovun P.Həsənova ilə birlikdə yazdıqları "Yaradıcılq və intuisiya haqqında fəlsəfi düşüncələr" adlı kitabçada isə yaradıcılıq prosesində intuisiyanın rolu məsələsi fəlsəfi-qnoseoloji tədqiqat obyekti kimi araşdırılmışdır.[35]

Mövcud fəlsəfi ədəbiyyatı izlədikcə məlum olur ki, intuisiyanın nəzəri tədqiqi əsas etibarı ilə problemin qnoseoloji, antropoloji və psixoloji aspektlərinin açılması məqsədi daşımışdır. Problemin hazırkı işlənmə səviyyəsi və, o cümlədən, müasir elmin nailiyyətləri intuisiyanın idraki funksiyaları problemini müasir tələblər əsasında fəlsəfi işlənməsinə imkan verir.

Problemin aktuallığı və işlənmə dərəcəsi tədqiqatın məzmununu, strukturunu, obyektini, predmetini, məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi qnoseoloji fenomen olan intuisiya çıxış edir. Tədqiqatın predmeti kimi isə intuisiyanın idrakı funksiyasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan dissertasiyanın əsas məqsədi fəlsəfi problemlər içərisində özünəməxsusluğu ilə seçilən intuisiya probleminin müasir elmi-fəlsəfi baxımdan araşdırılmasından ibarətdir. Bu məqsədin həyata keçirilməsi bir sıra kompleks vəzifələrin həllini tələb edir :

-intuisiya anlayışının inkişaf tarixini Şərq və Qərbin fəlsəfi ənənələri üzərindən təhlil etmək;

---

[34] Hacıyeva, A.Ə. Mədəni-tarixi irsin tədqiqimdə hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti / A.Ə.Hacıyeva. – Bakı: Adiloğlu, – 2004; Xəlilov, S.S. Sivilizasiyalararası dialoq / S.S.Xəlilov. – Bakı: Adiloğlu, –2009; İsmayılov, F.Q. Klassik psixoanalizin əsasları / F.Q.İsmayılov. – Bakı : Azərbaycan Milli Ensiklopediyası NPB, – 2003; Məmmədov, Ə.B. Elmi idrak və onun inkişaf dialektikası / Ə.B.Məmmədov. – Bakı: Səda, – 1998; Məmmədov, Z.C. Azərbaycan fəlsəfəsi tarixi / Z.C.Məmmədov. – Bakı: Bilik, İrşad mərkəzi, – 1994; Rüstəmov, İ. Azərbaycanda təbii – elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr – XX əsrin əvvəli) / İ.Rüstəmov. – Bakı: Diplomat, – 2001; Şükürov, A.M.Şərq fəlsəfəsi və filosofları / A.M.Şükürov. – Bakı: Əbilov, Zeynalov və oğullar, – 2005.

[35] Məmmədov, Ə. Yaradıcılıq və intuisiya haqqında fəlsəfi düşüncələr / Ə.Məmmədov, P.Həsənova. – Bakı: AzTU, – 2009.

- müasir elmi nailiyyətlərin intuisiya mövzusunun yenidən fəlsəfi mənalandırılmasına gətirdiyi yenilikləri aşkarlamaq;

- intuisiyanın başlıca növlərini ayırd etmək və onun koqnitiv fəaliyyətdə əsas təzahür formalarını göstərmək;

- ətraf aləmin dərk olunmasında hissi və məntiqi idrakla bərabər intuisiyanın birgə fəaliyyəti barədə fikirlərə aydınlıq gətirmək;

- instinkt və intuisiya arasında qarşılıqlı münasibətləri müəyyənləşdirmək;

- rasionallığın fəlsəfi mahiyyətini aydınlaşdırmaq və onun intuisiya ilə əlaqə və bağlılığnı üzə çıxarmaq;

- intuisiyanın yaradıcılığa etdiyi təsirin əhəmiyyətini incələmək.

**Tədqiqatın metodları.** Tədqiq olunan problem elmi və fəlsəfi xarakter daşıdığından onun işlənməsi dissertasiyanın nəzəri və metodoloji bazasını azərbaycan və xarici alimlərin intuisiya probleminin müxtəlif aspektlərinin araşdırılmasına həsr etdikləri əsərləri təşkil edir. Intuisiyanın formaları və idraki funksiyalarının təhlili K.Yunq, M.Bunqe, V.Asmus və başqalarının nəzəri müddəaları əsasında aparılmışdır. İntuisiya probleminin fənlərarası xarakterinə müvafiq olaraq müəllif mövzuya həsr olunmuş psixofizioloji tədqiqatların nəticələrindən da yararlanmışdır.

Tədqiqatın metodoloji əsasını müqayisəli-tarixi, analiz və sintez, ümumiləşdirmə, təsnifatlaşdırma kimi ümumelmi metodlarla yanaşı dialektik fəlsəfi metoddan da istifadə olunmuşdur. Kompleks və sistem yanaşma intuisiyanın çoxaspektliyini və şüur, yaradıcılıq, dəyərlər, inam, duyğular kimi hadisələrlə mürəkkəb əlaqələrini aşkarlamağa imkan verir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin qoyuluşu ilə müəyyən olunur və aşağıdakı müddəalarda öz əksini tapır:

- tədqiqat Azərbaycanda intusiya probleminin öyrənilməsinə həsr olunmuş ilk cəhd kimi qiymətləndirilə bilər;

- Şərq və Qərb fəlsəfi sistemlərində intuisiya probleminin təzahürlərinin komparativistik təhlilinə cəhd edilmişdir;

- yeni biliyin əldə olunmasında intuisiyanın rolu və əhəmiyyəti müasir elmi tədqiqatlar üzərində əsaslandırılır;

- müasir postindustrial cəmiyyətdə kreativliyə qarşı artan tələblər fonunda yaradıcılıq prosesində intuisiyanın əhəmiyyəti yenidən fəlsəfi baxımdan mənalandırılır;

- rasionallığın intuisiya ilə əlaqə və bağlılığına yenidən baxılmışdır;

- kriptoqnoz biliyin fəlsəfi mahiyyətinin izahında fərqli fikirlərə yeni baxış bucağından qiymət verilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** onun məqsəd və vəzifələri və elmi yeniliyi ilə sıx bağlıdır.

Tədqiqat insanın idraki fəaliyyətinin vacib elementi olan intuisiyanın əhəmiyyəti barədə təsəvvürləri genişləndirə bilər. Fəlsəfi fikir tarixində intuisiyanın izahını verməyə xidmət edən konsepsiyaların sistemli və kompleks təhlili intuisiya probleminin sonrakı tədqiqinə yardımçı ola bilər. Nəzəri ümumiləşdirmələr və praktiki nəticələr qnoseologiya, antropologiya, kulturologiya, psixologiya və sosiologiya sahələrində çalışan mütəxəssislər tərəfindən istifadə oluna bilər.

Dissertasiyanın praktiki əhəmiyyəti alınmış nəticələrin fəlsəfə, külturalogiya, antropologiyadan oxunan mühazirə və seminar məşğələlərinin materiallarına daxil oluna bilmə imkanları ilə müəyyən olunur. Alınmış nəticələr tədris və elmi-metodiki vəsaitlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın başlıca müddəaları elmi jurnallarında, beynəlxalq elmi konfransın materiallarında nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi** "Giriş", üç fəsil, "Nəticələr" və "İstifadə olunmuş ədəbiyyat siyahısı"ndan ibarətdir. Ədəbiyyat siyahısı istisna olmaqla işin ümumi həcmi 241716 (o cümlədən, Giriş – 14638 işarə, I fəsil – 98988 işarə, II fəsil – 48791 işarə, III fəsil – 70266 işarə, "Nəticələr" 8 372 işarə) işarədir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yeniliyi, metodları, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, strukturu şərh olunur.

Dissertasiyanın I fəsli "**İntuisiyanın mahiyyəti**" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

I fəslin birinci yarımfəsli "**İntuisiya fəlsəfi problem kimi**" adlanır. İnsan idrakının ən sirli məqamlarından birini təşkil edən intuisiya problemi əslində hər zaman özünə diqqət cəlb etmişdir. İdrak prosesinin izahına girişən fərqli mövqeli filosoflar bu sirli məqamın şərhini vermək zərurəti hiss etmişlər. İntuisiya məsələsi çox çətin rasionallaşdığından filosofların şərhləri də bir-birindən xeyli fərqlənir. Ayrı-ayrı təlimlərdə, müxtəlif nəzəriyyələrdə biz intuisiyanın adi bioloji instinkt, hissi idrakın forması, anadangəlmə ideyalar, aldadıcı hisslər, "ali vəhy", fövqəltəbii qüvvə kimi ən müxtəlif səpgili izahlarına rast gələ bilirik.

1) İntuisiya – əsas özəlliyi əldə olunma üsulu ilə şərtlənən bilik növüdür. Bu, bulavasitə bilikdir, sübuta ehtiyacı yoxdur və həqiqət kimi qavranılır. Bu mövqe, məsələn, Platon, Dekart, Lokk, Spinoza, Leybnis, Hegel, Berqsona daha yaxındır. Bilavasitə və dolayı əldə olunan bilik bütün elmlərə xasdır, lakin onlar arasında fərqləri ilk dəfə riyaziyyatda müəyyənləşdirilmişdir.

2) Əldə olunma üsuluna görə intuisiya həqiqətin, yəni əşyalar arasındakı obyektiv əlaqələrin birbaşa sezilməsidir (intueri- latın sözü olub - seyr etmək, bəsirət gözü ilə görmək deməkdir).

İntuisiya adi bioloji instinkt mənasında bilavasitə canlı varlıqlara həyatın davamı üçün lazım olanları diktə edir. Beləcə, məsələn, daxili hissə etibar edərək yeni doğulmuş dəniz tısbağaları dənizə sarı sürünməyə başlayırlar. Bu baxımdan, A.Berqsonun öz intuitivizmində "yaradıcı təkamül" fəlsəfəsinə əsaslanması təəccüb doğurmur. O göstərir ki, intuisiya "həyat gücünün" təzahür forması kimi ağla, düşüncəyə və elmə qarşı durur və yalnız varlığın mahiyyəti ilə müqayisə oluna bilər.

Relevant informasiya, burada, daxili problem situasiyasının qeyri-şüuri səviyyədə həllinin hazırlanması prosesinin obyektiv səbəbi kimi anlaşılır. Həll prosesi gizli hazırlandığından intuisiyanın qəflətən təzahürü və gözlənilməzliyi üzə çıxır. "Qəflətən" anlayışı bir qayda olaraq "sıçrayış" anlayışı ilə əlaqələndirilir və yeni biliyə keçidin sıçrayışlar şəklində ifadəsi kimi qiymətləndirilir. V.Polonski bu məqamı dialektik məntiqlə belə izah edir: "*Naməlum anda kəmiyyət dəyişikliyinin artması sıçrayışla yeni keyfiyyət halına keçir. Bu "sıçrayışlar", "partlayışlar" şüurda baş verir və "qəflətən" əmələgəlmə, "intuisiya", "nurlanma" kimi qəbul olunur*".[36]

V.F.Asmusun qeyd etdiyi kimi intuisiyanın real fakt kimi qəbul olunması filosofun heç də intuitivistlər kateqoriyasına aid edilməsinə əsas vermir. Bütün intuisiya nəzəriyyələri "intuitivizm" nəzəriyyələri deyil: "*İntuitivizm - intuisiya haqqında fəlsəfi təlimin tamamilə xüsusi tarixi formasıdır*"[37], - deyir tədqiqatçı.

Məlumdur ki, A.Berqson özünün psixi həyat və maddi dünyanı dərketmə konsepsiyasını irəli sürmüşdür. Həmin konsepsiya onun "Zaman və iradə azadlığı", "Yaradıcı təkamül" və bir sıra digər əsərlərində öz geniş açılışlarını tapmışdır. Berqson hesab edir ki, insan idrakı, insanın ağılı uzun təkamül prosesinin nəticəsi olmaqla cansız təbiətin dərk edilməsinə uyğunlaşdırılmışdır və həyat hadisələrini dərk etmək üçün bəşəriyyət uzun təkamül prosesində məhz intuisiya gəlib çıxır. İntellekt və bütün elmlər, Berqsonun fikrincə, öyrənilən hadisələrin mahiyyətinin əsl əksi deyildir. Lakin əgər zəka, məntiqi təfəkkür həyatın mahiyyətini aça bilmirsə, belə halda düşünmək olar ki, bizim əqli və məntiqi təfəkkürümüzdə dumanlıq vardır və bu dumanlılıq bəzən hansısa qüvvənin köməyi ilə nurlanır aydınlanır.

Berqson bu qüvvələri instinkt və ya intuisiya adlandırır, hətta bəzən intuisiya və instinkti eyniləşdirir. İntellekt öyrənilən obyekti

---

[36] Полонский, В.П. Сознание и творчество / В.П.Полонский. – Ленинград: Издательство писателей в Ленинграде, – 1934, с. 175.

[37] Асмус, В.Ф. Проблема интуиции в философии и математике очерк истории: XVII – начало XX в.: [Электронный ресурс]. URL: http://psylib.ukrweb.net/books/asmus01/index.htm

hissələrinə ayırır, onları sabit və ölü formalarda götürür və o, əslində həyatı doğru anlamır da.

A.S.Karmin, E.P.Xaykin intuisiyanı qnoseoloji hadisə kimi şərh edərkən intuisiyanı əyani təsəvvürlər və abstrakt anlayışların, hissi və rasionalın qarşılıqlı əlaqəsi kimi başa duşurdülər və bu baxımdan intuitiv prosesin iki növünü ayırırdılar: 1) artıq əldə olan anlayışlardan, əyani obrazlara keçid – eydetik intuisiya; 2) artıq əldə olan əyani obrazlardan yeni anlayışlara keçid – konseptual intuisiya.

Deməli, intuisiya müəyyən mənada hissi idrakla rasional idrak arasında körpü rolunu oynayan, onların səmərəlilik dərəcəsini yüksəldən, sürətini artıran bir idrak formasıdır.

I fəslin ikinci yarımfəsli "**İntuisiyanın növləri və təzahür formaları**" adlanır. İntuisiya mürəkkəb təbiətə və mahiyyətə malik idrak formasıdır. Hələlik onun məntiqi, strukturu, funksiyaları haqqında mükəmməl təsəvvür mövcud deyildir. Bununla belə bugün onun haqqındakı baxışlar intuisiyanın hissi və intellektual olmaq etibarı ilə iki növə bölməyə əsas verir.

İntuisiya həqiqəti bilavasitə, yəni konkret mülahizələrin köməyi ilə əsaslandırmaya, qabaqcadan məntiqi mülahizələrlə şərtləndirilməyə, keçmiş təcrübəyə əsaslanmayan formada dərk etmə qabiliyyətidir.[38] "Hissi intuisiya" hələ heç bir fəlsəfi nəzəriyyə, bilik faktlarının izahı və təfsiri ilə bilavasitə bağlı deyil. Bu termin yanlız mövcud olan faktın qəbul edilməsini ifadə edir. Bu mənada, (heç bir fəlsəfi nəzəriyyə ilə bağlı olmayan) intuisiya terminindən, təsadüfi deyil ki, riyaziyyatda da daima istifadə olunur.

Bunqe özünün "İntuisiya və elm" adlı əsərində qavrayışın, hissi intuisiya forması olmaq etibarilə üç səviyyədə təzahır etdiyini bildirir: 1) predmetin, hadisənin və işarəninin sürətlə eyniləşdirilməsi (tanınması); 2) işarə ilə məlumatın nisbətinin aydınlaşması; 3) təfsir (şərh) qabiliyyəti.

Təfsir prosesinin tam deduktiv olmasına baxmayaraq, mühakimə ilə terminlər arasındakı əlaqəni məntiqi proses kimi izah etmək olar:

---

[38] Əfəndiyev, M. Sosiologiyanın nəzəri problemləri / M.Əfəndiyev, A.Şirinov. – Bakı: Bakı Universiteti, – 2001, – s. 274.

1) Təsəvvür bacarığı -- yaxud həndəsi təsvirləri olmayan obyektləri təsəvvür etmək, modellər yaratmaq;

2) İntuisiya təxəyyül kimi (Bunqe təxəyyül kimi intuisiyanın üç mərhələsinin fərqləndirir).

Təsəvvür bacarığı təfsir bacarığının özünü konkret formalarda ifadə etməsi deməkdir.

Tədqiqatçılar intuisiyanın əsas iki növünü - hissi və intellektual intuisiyanı ayırırlar. Biz hissi intuisiya ilə qısa tanışlıqdan sonra belə nəticəyə gəlirik ki, hissi intuisiya obyekti şüurumuza təqdim edir, lakin onu izah edə bilmir. Buna görə də "intuitiv idrak" ifadəsi ziddiyyətlərə malikdir, intuitiv idrakın hər hansı mərhələsində, intellektual intuisiya üzə çıxa bilər. Dərketmə prosesinin məqsədi biliklərin əldə olunmasıdır. Bilavasitə biliyin bir növü kimi intellektual intuisiyanın ayrılması bilavasitə ilə bilvasitə olan biliklər arasındakı fərqin aydınlaşması nəticəsində aşkar olur. İntellektual intuisiya ağılla dərk etmədir, o hissi görmənin eyni deyil.

Bunqe intellektual intuisyanı aşkarlanma mərhələsi və vəziyyətindən asılı olaraq aşağıdakı formada təsnifatlaşdırır:

1. İntuisiya ağıl kimi.
2. İntellektual intuisiya adi (idrak, təfəkkür) üsul kimi.

Beləliklə, Bunqenin araşdırmaları bizə intuisiyanı təfəkkür fəaliyyətinin bir forması kimi dəyərləndirməyə əsas verir. Lakin intuisiyanın növlərinin fərqləndirilməsinə dair Karmin və Xaykinin də əhəmiyyətli fikirləri var. Onlar intuisiyanın iki əsas formasını göstərirlər:

1. Eydetik
2. Konseptual intuisiya.[39]

Eydetik intuisiya dedikdə tədqiqatçılar əvvəl məlum olan anlayışlar zəminində yeni obrazların yaradılmasını, konseptual intuisiya dedikdə isə əyani əsasda əvvəlcədən məlum olmayan yeni anlayışların formalaşdırılması əməliyyatlarını başa düşürlər. Hesab edirik ki, intuisiyanın bu cür qruplaşdırılması daha məqbuldur.

---

[39] Кармин, А.С. Творческая интуиция в науке / А.С.Кармин, Е.П.Хайкин. – Москва: Наука, – 1971.

İntuisiyanın bəzi xüsusiyyətlərini yuxarıda qeyd etdik. Eyni zamanda, deyilənləri tam yetərli hesab etmək fikrindən də uzağıq. Bu yerinə yetirdiyimiz araşdırma intuitiv adlanan proseslərin ancaq bəzi xüsusiyyətlərinin üzə çıxarılması üçün cəhddir. Hesab edirik ki, intuitiv proseslərin qnoseoloji funksiyası hissi və məntiqi idrakın daha dərin qarşılıqlı təsirini həyata keçirməkdən ibarətdir.

Hər bir idrak növünün məqsədi biliyin əldə olunması və yenidən işlənilməsidir. Biliyin yenidən əldə olunmasının dörd yolu vardır[40]: bir hissi obrazdan digər hissi obraza keçid (hissi idrak); bir anlayışdan digər anlayışa keçid (məntiqi idrak); bir əyani obrazdan yeni anlayışa keçid (hissi və məntiqinin qarşılıqlı təsiri); anlayışlardan yeni hissi - əyani obrazların alınması.

Yenidən yaranmanın bu sonuncu iki tipi intuitiv idrak sferasına daxildir. İntuisiyanın təsnifatı əvvəl deyildiyi kimi konseptual və eydetik olmaqla idrakın iki səviyyəsini müəyyənləşdirir. Biliyin yenidən yaranmasının bütün növləri bir-biri ilə sıx qarşılıqlı əlaqədə olaraq hissi və məntiqi idrakın arasında əlaqəni təmin edir, bunlar isə öz növbəsində intuitiv idrakla qarşılıqlı təsirdə olur.

Beləliklə, intuisiya yolu ilə həyata keçən hissi və məntiqi idrak hər hansı anlayış əsasında hissi obrazların özünəməxsus kombinasiyası ilə bağlıdır. Bunun nəticəsində, obyekt haqqında, təkcə onun təzahür formaları haqqında deyil, onun mahiyyəti haqqında yeni anlayış yaranır. Yeni biliyin əldə olunması hissi obrazların sadəcə kombinasiyası deyil. Bu kombinasiya intuitiv idrak səviyyəsində olur. Belə prosesin qnoseoloji mexanizmi məlum obyektin əyani obrazı - obraz-modeli əsasında hissi obrazların kombinasiyasını nəzərdə tutur.

Dissertasiyanın II fəsli "**İntuisiyanın gnoseoloji əsasları**" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

II fəslin birinci yarımfəsli "**Qeyri-şüurilik və intuisiya**" adlanır. Hələ Sokratın və Palotonun əsərlərində qeyri-şüuri ilə bağlı ideyalar geniş yer alırdı. Platon insanın daxili mənəvi dünyasında törəyən destruktiv meyllərin olduğunu izah etməyə çalışırdı. Sokrat

[40] Бунге, М. Интуиция и наука / М.Бунге. – Москва: Прогресс, – 1967, – с. 125.

da həmçinin insanın daxili aləmində bədxah, dağıdıcı instinktlərin olduğuna və insanın özünüdərk vasitəsilə bu qeyri-şüuri meyllərin qarşısını ala biləcəyinə inanırdı. Qeyri-şüurilik probleminin öyrənilməsi istiqamətində aparılan tədqiqatlara zənginlik gətirənlər sırasında B.Spinoza, Q.Leybinits, D.Hartli, İ.Kant, A.Şopenhauer, K.Karus, E.Hartman, Q.T.Fexner, V.Vundt, H.Helmhols, İ.M.Seçenov, İ.P.Pavlov, V.M.Bexterev, A.Lebo, İ.Berinqeym, J.Şarko, Q.Lebon, P.Jane və başqalarını da xatırlamaq mümükündür.

İnsanın aldığı çoxsaylı informasiyaları onun şüuruna nəzərən iki qrupa ayırmaq olar: 1) şüurdan, idrak aparatından keçərək neyron yuvalarında oturan, şüurlu informasiya; 2) hiss üzvləri vasitəsilə duyulsa da, indi insanın maraq dairəsinə daxil olmayan və deməli, onun şüurundan keçməyən və qeyri-şüuri surətdə neyron yuvalarında oturan informasiya.

Birinci qəbildən olan informasiyanın işlənməsi mexanizmi az-çox şəffafdır. İnikas mexanizmindən keçərək biliklər insanın nəzəri və praktik fəaliyyətinin əsasında durur. Fəaliyyətin uğurluluq dərəcəsi də biliyin həcmindən və dərinliyindən asılıdır.

İkinci qəbildən olan informasiyanı məhz insanın özü də anlamır, o, bilmir ki, intuitiv surətdə hər hansı bir məsələni dərk etməsinin əsasında məhz bu qeyri-şüuri informasiya durur. Buna əsaslanaraq söyləyə bilərik ki, uşaqlıqdan yetkin yaşlara qədər insanın qeyri-şüuri sürətdə qavradığı informasiyalar onun intuitiv fəaliyyəti üçün zəmin təşkil edir.[41]

İnsanın yaşadığı müddətdə topladığı qeyri-şüuri informasiyanın kütləsi və rəngarəngliyi onun idrakı üçün intəhasız resurs təşkil edir. Məhz bunun sayəsində insan psixikasının qeyri-şüuri təbəqəsi ilk baxışda onun özü üçün də izahedilməz və anlaşılmaz görünür. Hesab edirik ki, bu latent (gizli), anlaşılmaz sayılan biliyin özünü kriptoqnoz (kryptos – gizli, qnosis- bilmək) adlandıra bilərik.

Kriptoqnoz dedikdə, biz insanın ətraf aləm ilə həyatı boyu təmasından doğan, onun tərəfindən dərk edilməyən və təbii olaraq,

---

[41] Бергер, П. Социальное конструирование реальности. Трактат по социологии знания / П.Бергер, Т.Лукман. – Москва: Медиум, – 1995, – с. 74.

istifadə edilməyən bilik kütləsini başa düşürük ki, bəzən bu biliklər sanki qəfildən oyanır və fəaliyyətə başlayır.

Fərdin şüurlu həyatı yalnız müəyyən zaman və məkan parametrləri çərçivəsində, müəyyən təbii, sosial şərtlər daxilində baş verir. Davranışın bir çox elementləri avtomatik yerinə yetirilir. Avtomatlaşdırmanın müəyyən formalarının öyrənilməsi göstərir ki, onlar özünəməxsus qabiliyyətlərin dəyişilməsi gedişində mexanikləşdirilmişdir.

Qeyri-şüurilik insanın həyatı boyu topladığı təcrübələrin, onun yaddaşında qalan informasiyaların təzahüründə aşkarlanır. Subyektin malik olduğu biliklərin ümumi cəmindən cari məqamda şüur fokusunda yalnız az bir hissəsi işıqlanır. Beyində saxlanılan bəzi biliklər, məlumatların varlığından insanlar hətta şübhələnmirlər də. Beynin reaksiyalarını dəqiq öyrənərkən biz yaddan çıxardırıq ki, beyinin yaddaşı adlandırılan şüur dairəsindən kənarda böyük bir "anbar" qalır. Bu anbar bütün həyat boyunda doldurulur.

Qeyri-şüurilik haqqında ilk dəfə ən əhəmiyyətli təlim Z.Freyd tərəfindən yaradılmışdır. Freyd insan psixikasını üç instansiyaya ayırırdı: "O" (qeyri-şüuri), "Mən" (şüur), "Fövqəl Mən" (sosial şüur). O, izah edirdi ki, qeyri-şüuri instansiya pisixikanın ən qaranlıq ecazkar, anlaşılmaz təbəqəsidir. Şəhvət hissləri, təəşşüqlər, affektlər, emosiyalar, müəyyən simptomlar, səbəbi və hərəkətverici mənbəyi bilinməyən bütün destruktiv meyllər, təhriklər, bir sözlə instinktiv fəaliyyət bu sferada baş verir. "O" yalnız insanı həzz almağa, öz daxili mənəvi tələbatlarını ödəməyə sövq edir. "O" insanda vəhşiliyin və heyvaniliyin təcəssümüdür.

"Mən" insanı yaşadığı təbii və sosial mühiti dərk edərək ona uyğunlaşmağa, öz daxili mənəvi dünyasından doğan destruktiv meyillərin qarşısını almağa, özünü real həyatın qanun və prinsiplərinə adekvat fəaliyyət göstərməyə sövq edir. Bu şüur instansiyası insanın psixikasında nizamlayıcı funksiyanı yerinə yetirir. "Fövqəl Mən" isə insanda sosial, əxlaqi, hüquqi, siyasi və s. kimi ictimai prinsiplərin yerinə yetirilməsini şərtləndiriir.

Freyd qeyd edirdi ki, şüur qeyri-şüuridən, onun tələblərindən asılıdır. "Mən"də şübhəsiz çoxlu şeylər qeyri-şüuridir, məhz, onu "Mən"in nüvəsi adlandırmaq lazımdır. Lakin buna baxmayaraq

“Mən” pisixikaya aydınlıq gətirir, insan fəaliyyətinin senzurasını həyata keçirir, şəxsiyyəti idarə edir. Freyd hesab edirdi ki, “Mən”ə həm “O”, həm də “Fövqəl Mən” təyziq göstərir, qeyri-şüuri “Mən”i bioloji tələblərinn yerinə yetiorilməsi istiqamətində fəaliyyət göstərməyə, “Fövqəl Mən” isə ictimai, əxlaqi qanunlar çərçivəsində yaşamağa və onlara uyğun hərəkət etməyə istiqamətləndirir. O, pisixikanın təbii halı kimi qeyri-şüurini göstərirdi, şüurini isə insanın sonradan qazandığı bir keyfiyyəti adlandırırdı. *“Şüur psixikanın mahiyyəti hesab edilə bilməz”.*[42]

Freyd qeyri-şüuriliyin iki formasını ayırırdı: latent və sıxışdırılmış. Hər hansı bir pisixi məzmunun, funksiyanın, prosesin, təsəvvürün və s. şüur səviyyəsindən qeyri-şüuriyə keçirilməsi sıxışdırılmanın əsasını təşkil edir. Sıxışdırmaya Freyd qeyri-şüuriliyin tipik nümunəsi kimi baxırdı. Sıxışdırılmış qeyri-şüuri proseslər onun fikrincə heç vaxt şüur səviyyəsinə qayıda bilməz. Latent qeyri-şüuri isə müəyyən şərtlər çərçivəsində şüura qayıda bilər. Sıxışdırılmış qeyri-şüurinin şüuriyə qayıtması üçün xüyusi situasiyalar və metodlar lazım gəlir. Fərdin hər hansı bir arzusunu, niyyətini həyata keçirməsi onun üçün təhlükə törədirsə onun həyatında baş vermiş və bütövlükdə neqativ qiymətləndirdiyi hadisələr əhval – ruhiyyəsinə və pisixi vəziyyətinə duyulacaq təsir göstərirsə həmin arzu, niyyət və sıxışdırılaraq qeyri-şüuriyə keçirilir.

Qeyri-şüurilik bir zaman şüurda iştirak etməyən və şüurda iştirak edən, lakin ondan sıxışdırılıb çıxarılmış məzmunu bağlayır. Bu məzmunun şəxsiyyətin fəaliyyətində təzahür etməsinini bir neçə növə ayırmaq olar: 1) fəaliyyətin dərk edilməmiş törədici səbəbi; 2) fəaliyyətin avtomatik xarakterini təmin edən dərk edilməmiş mexanizmi və nizamlayıcısı; 3) dərk edilməmiş subsensor proseslər və mexanizmlər; 4) dərk edilməmiş sosial proqram.

İntuisiyanın həyata keçirdiyi funksiyaları:

1. Qnoseoloji (idraki) funksiya. Bütün idrak formaları kimi intuisiyanın da yerinə yetirdiyi başlıca funksiya inikas funksiyasıdır. Əks halda intuisiyanın bir idrak forması kimi meydana gəlməsini və

---

[42] Фрейд, З. Введение в психоанализ. Лекции / З.Фрейд. – Москва: СГУ, – 2007, – с. 425.

fəaliyyətini (idrakın subyekti olan insanın keyfiyyəti kimi də) izah etmək qeyri-mümkün olardı. Ən azı praktikanın formalarından biri vasitəsilə verfikasiyaya (yoxlanmaya) məruz qalır, onların həqiqi və ya yanlış olması da məhz bu yolla təsdiqlənir.

2. Zənnimizcə, ikinci sıraya intuisiyanın tamamlayıcı funksiyası çəkilməlidir. Bu o deməkdir ki, konkret zaman kəsiyində konkret idrak prosesində hissi və rasional momentlərdə çatışmayan cəhətlər intuitiv qabliyyətlə tamamlanır.

3. Keçid funksiyası. Məlumdur ki, idrakın hissi pilləsindən rasional pilləsinə keçid iki yolla mümkündür: a) ənənəvi klassik yolla; b) intuitiv yolla.

4. Proqnoz, öncəgörmə funksiyası. Bütün qəbillərdən olan proqnoz və öncəgörmələr nizamlı biliyin olmadığı şəraitdə irəli sürülür. Əgər baş verən prosesin bütün parametrləri öyrənilən zaman kəsiyində aydın və birmənalı qiymətlər alardılarsa onda nə öncəgörməyə, nə də proqnoza ehtiyac qalmazdı.

5. Sintezləşdirmə funksiyası. Müəyyən baxımdan idrak prosesini hissələrdən tamın, hissələr haqqındakı biliklərdən tam haqqında biliyin sintezi kimi də qiymətləndirmək olar.

II fəslin ikinci yarımfəsli "**İntuisiya və yeni bilik problemi**" adlanır. Ənənəvi fəlsəfə instinktdən çox intellekti ali mənəvi qabiliyyət kimi mənalandırmağa meylli olmuşdur.

İntellekt formanın bilinməsi, münasibətlərin dərk olunmasıdır. Berqsona görə intellektin bu sırf formal dərk imkanları instinktin maddi idrakı ilə müqayisədə böyük üstünlüyə malikdir. Forma isə ona görə forma sayılır ki, o boşluqdur. Lazım gələrsə ola bilsin ki, çoxlu şeylərlə, həmçinin tamamilə səmərəsiz şeylərlə doldurula bilər. Ağıl konkret şeylərlə müqayisədə onlarla daha asan əməliyyatlar apara bilir. Hər halda anlayış şeylərin bilavasitə dərk edilməsi yox, intellektin onlar üçün müəyyənləşdirdiyi təsəvvürün dərkinə xidmət edir. Artıq bu, obrazlar deyil, simvollardır və bizim məntiqimiz həmin simvollara müraciət edərkən rəhbər tutulan qaydaların məcmusunu ifadə edir.

İntuisiya intellektə xas olmayan inandırıcılıq qabiliyyətinə malikdir. Intuisiya varsa, onun həqiqiliyinə şübhələnmək mümkün deyildir. Əgər yoxlama nəticəsində intuisiyanın intellekt kimi yanlış

olması nəzərə çarparsa, onun daha güclü subyektiv doğruluğu çatışmazlığa çevrilir, intuisiyanı aradan qaldırılması çətin olan yalan səviyyəsinə qaldırır. Özünü dərketmə intuisiyaya aid olan məsələdir. Lakin özünü dərketmə ilə yanaşı intuisiyanın ən məlum tərəflərindən biri insanların fikirləşdiyi, mənimsədiyi biliklərdir. Nəzərdə tutulmayan yalanın olmadığı halda belə, təcrübə daim təsdiqləyir ki, insayt həqiqəti qəbul etdikdə belə illüziya olaraq qalır, intellektin daha ləng və ehtiyatlı metodları isə son nəticədə ümidvericidir. İntuisiya o şeydir ki, biz görürük və yaxud eşidirik və ya daxildən hiss edirik, o daxilimizdəki dildir.[43]

Dissertasiyanın III fəsil "**Yaradıcılıq və intuisiya**" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

III fəslin birinci yarımfəsli "**Yaradıcılıq fəlsəfi problem kimi**" adlanır. Yaradıcılıq prosesinin öyrənilməsində xüsusi yerlərdən birini də onun idrak baxımından gerçəkləşdirilmə mexanizmləri də xüsusi əhəmiyyət kəsb edir. Daha çox diqqət çəkən məqamlardan biri də bu prosesdə intuisiyanın hansı rola malik olmasıdır. İntuisiya insanın psixi fəaliyyətinin xüsusi, fenomenal və mürəkkəb hadisəsi olub yaradıcılıq prosesində mühüm rola malikdir. İntuisiya şəxsiyyətin fərdi-psixoloji xüsusiyyəti olub, onun həqiqəti sübutun köməyi ilə əsaslandırmadan birbaşa dərk etmə üsuludur.[44]

İntuisiyanın yaradıcılıq prosesindəki rolu bir çox faktlarla da öz təsdiqini tapır. Bir çox alimlər öz böyük kəşflərini məhz intuisiyanın köməyi ilə etmişlər. Bu alimlərə misal olaraq Arximed, Nüton, Braun, Kekuleni göstərə bilərik. Engels Marksa yazdığı məktubunda yazırdı ki, bu gün səhər-səhər, hələ yataqda olarkən təbiyyətşünaslıq elmlərinə dair ideyalar aşkarlayıb.

Yaradıcılığın fəlsəfi tədqiqinin zəruriliyini bir neçə amillə əlaqələndirmək olar. Əsas məqam odur ki, yaradıcılığa məhz fəlsəfi yanaşmada insan yaradıcılığının elə keyfiyyət səciyyəsi aşkarlanır ki,

---

[43] Шульц, Л. Язык интуиции: как использовать свою интуицию для решения самых сложных проблем / Л.Шульц / Пер. с англ. Озерова А. – Москва: Эксмо, 2007, – с. 34.
[44] Спиркин, А.Г. Философия / А.Г.Спиркин. – Москва: Гардарики, – 2006, – с. 469.

onlar müasir tarixi inkişafın və son nəticədə dövrün mənəvi ölçülərini parlaq şəkildə əks etdirir. əminliklə söyləmək olar ki, əgər XX əsrdə insana münasibətdə "zəkalı insan" şüarı səslənmişdirsə, XXI əsrdə insan haqda əsas tezis, onun sosial mahiyyətini əks etdirəcək "yaradıcı insan" olacaq.

Yaradıcılığın ayrıca bir nəzəriyyəsinin yaradılması mümkünsüz olsa da, onun fəlsəfi təhlili mümkün və zəruridir.

III fəslin ikinci yarımfəsli "**Yaradıcılıqda intuitiv komponentlər**" adlanır. Yaradıcılıq intuisiyanın ən geniş şəkildə aşkarlandığı sfera olduğundan tədqiqatımızda onu ayrıca nəzərdən keçirməyə bilməzdik.

Təbiəti etibarilə yaradıcı xarakterə malik olan insan idrakı daim yeni problemlərin aşkarlanmasına yönəlməklə onların həllində ənənəvi vasitələrdən əlavə standart olmayan üsullardan da istifadə edir. Yaradıcılığın ən ilkin mərhələsi isə mövcud tələbatın dərk olunması ilə problemin irəli sürülməsi təşəbbüsüdür.

Yaradıcılıq prosesini şərh etdikdə bir sıra mərhələri ayırmaq olar:

1) Hər hansı bir məsələnin və ya problemin yaranma, yaxud qarşıya çıxması;

2) Mövzunun subyekt tərəfindən qavranılması, problemin hansı vəziyyətdə olmasının təhlili.

3) Subyektin problemi həll etməyə çalışması. Bu istiqamətdə gedən təfəkkür prosesi, yeni ideyaların yaranması;

4) Həllin tapılması üçün qeyri-şüuri səviyyədə alınan nəticələrin qəflətən şüur səviyyəsinə keçməsi;

5) Həllin meydana gəlməsi və nəticənin qeydə alınması.

Yaradıcılıq mahiyyət etibarilə insan təfəkkürünün məhsuldar fəallığı kimi səciyyələnir və rasional fəaliyyətilə zidd deyildir.

İntuisiyanın başlıca növlərindən biri məhz evristik (yaradıcı) intuisiyadır. Bu funksiya spesifik idrak prosesidir. Yaradıcı intuisiya mahiyyət etibarilə hissi obrazların və mücərrəd anlayışların qarşılıqlı təsirini ifadə etməklə yeni obrazların və anlayışların yaradılması ilə nəticələnir. Onların məzmununu əvvəlki qavrayışları sadəcə sintez etməklə və yaxud mövcud anlayışlarla məntiqi əməliyyatlar aparmaq yolu ilə hasil etmək mümkün deyildir.

İntuisiya müəyyən mənada instinktiv xarakterə malikdir. O, eyni zamanda adi şüurdan yüksəkdə qərarlaşır. Belə bir ümumi fəlsəfi mövqe ilə razılaşmaq olar ki, intuisiya idraki qüdrəti baxımdan fövqəlşüur kimi qiymətləndirilə bilər. İntuisiya bircə anda barəsində düşünülən obyektin ünsürlərinə və hissələrinə nüfuz etmək və həmin obyektin mahiyyətini bütövlükdə əks etdirmək gücünə malikdir. A.Berqsonun qeyd etdiyi kimi intuisiya intellektin yarımkölgəsidir.

Məlum olduğu kimi, insan beyni iki yarımkürədən ibarətdir. Onlardan hər biri informasiyanı özünəməxsus şəkildə çevirir. Beynin belə təşkili lateralizasiya adlanır. İnsanın yaşı və inkişafı ilə əlaqədar olaraq lateralizasiya daha da güclənir və nəticədə yarımkürələr bütün psixi proseslərdə tamamilə müxtəlif şəkildə iştirak etməyə başlayır. Bundan əlavə beynin fəaliyyət mexanizmi elədir ki, həmin yarımkürələr növbə ilə fəaliyyət göstərirlər. Onların belə qarşılıqlı fəaliyyət mexanizmi resiproksiya adlanır. Lateralizasiya və resiproksiya insanın bütün psixi proseslərinə təsir göstərir. Bu, şəxsiyyətin fərdi xüsusiyyətlərində də əks olunur. Hər bir yarımkürənin dilini başa düşmədən yaradıcılıq problemini, intuitiv qərarları müzakirə etmək mümkün deyil. İntuisiyanın inkişafı üçün onların məhz harmoniyalı qarşılıqlı fəaliyyəti zəruridir.

İntuisiyanın əsasında – aralıq nəticələrin dərk edilməzliyi dayanır. Sıçrayış zamanı (hətta yarımkürələr arası) «sıçrayışın» məntiqi əməliyyatları dərk edilmir və bu sxem əsasında inkişaf edən prosesi intuitiv adlandırmaq olar. Sıçrayışın iki növünü ayıra bilərik: nurlanma və proqnoz. Nurlanma sağ yarımkürədən alınmış məsələnin həllinin sol yarımkürədə dərk edilməsi deməkdir. Proqnoz - aralıq mərhələləri həyata keçirmədən son nəticənin dərk edilməsi və onun əldə olunması yollarının dərk edilməsi çətindir.[45]

Amerika tədqiqatçısı Raudsepp razılaşır ki, yaradıcılıq prosesi intuisiyadan başlayır. O, Verthaymerə istinad etməklə iddia edir ki, intuitiv cəhətdən "nurlanma" yalnız yeni ideyaların yaranmasına deyil, həmçinin də onun sonrakı inkişaf istiqamətinin müəyyən edilmə-

---

[45] Интуиция, логика, творчество / Под ред. М.И.Панова. – Москва: Наука, – 1987, – с. 126.

sinə və bu istiqamətin doğruluğuna olan inamın təşəkkülünə gətirib çıxarır.

Bu gün üçün yaradıcı intuisiyanın hamı tərəfindən qəbul edilən vahid konsepsiyası mövcud deyildir, lakin müəyyən yanaşmaları biz qeyd edə bilərik:

1. İntuisiya sahəsi – insanın daha dərin qatlara yol tapmış mental fövqəlşüurudur.

2. İntuisiyanın mexanizminin izahını qeyri-şüurilik sferasında axtarılır.

3. Sinergetik baxımdan yaradıcılıqda intuisiyanın təzahürünü özünütəşkilin mexanizmi kimi də izah etmək olar.

4. J.Piaje intuisiyanı fərdi inkişafın məntiqəqədərki mərhələsinin ifadəsi olan obraz-əşya təfəkkürü kimi nəzərdən keçirirdi.

5. İnsanın beyin yarımkürələrinin işləmə mexanizminə əsaslanaraq R.M.Qranovskaya intuisiyanın psixofizioloji mexanizmnini izahını verir.[46]

Beləliklə, yaradıcılıq prosesləri intuisiyanın mahiyyətinin tam şəkildə aşkalandığı sfera olduğundan onun öyrənilməsi baxımından da ən əlverişli obyektdir. İntuisiyasız yaradıcılıq yoxdur. Lakin rasional idraki fəaliyyət olmadan da həqiqi yaradıcılıqdan söhbət gedə bilməz. Əks halda bu yalnız təxəyyül oyunundan ibarət bir fenomen olardı. İntuisiya yaradıcılığın bizim üçün görünməyən, qeyri-şüuri komponentini təşkil etdiyindən daha çox diqqət cəlb edir. Yuxarıda biz yaradıcılığın qeyri-şüuri sferasının ən müxtəlif mütəxxəssislər tərəfindən necə təfsir edildiyini göstərməyə çalışdıq.

Dissertasiyanın **“Nəticə”** hissəsində mövzuya yekun vurulmuşdur. İntuisiyanın insanın idraki fəaliyyətindəki müxtəlif təzahür formalarının təhlili onları aşağıdakı kimi təsnif etməyə imkan verir: 1) tətbiq olunduğu informasiyanın xarakterinə görə konkret və mücərrəd intuisiya; 2) irrasional təcrübəyə, hisslərə, yaxud rasional təfəkkürə söykənməsindən asılı olaraq mistik (fövqəl-hissi və ya fövqəl-intellektual), hissi və intellektual intuisiya; 3) yenilik meyarına görə evristik və adi intuisiya; 4) peşə sahəsi ilə bağlı olaraq, riyazi,

---

[46] Грановская, Р.М. Интуиция и искусственный интеллект / Р.М.Грановская. – Санкт-Петербург, – 1992.

linqvistik və s. intuisiya. Evristik intuisiya adi intuisiyadan mahiyyətli dərəcədə fərqlənir: o, prinsipial olaraq yeni biliyin formalaşdırılması ilə bağlıdır. Bu akt hissi obrazlardan anlayışlara (eydetik intuisiya) və anlayışlardan hissi obrazlara keçidlərlə (konseptual intuisiya) müşayiət olur. Yaradıcılıq zamanı intuisiya təmiz şəkildə hissi və ya intellektual, konkret və ya mücərrəd formalarda aşkarlanmır, çünki yaradıcılıq bütöv bir prosesdir və burada bir tərəfdən emosiya və hisslər, digər tərəfdən isə, zəka və təfəkkür iştirak edir. Şərq fəlsəfəsində intuisiya mistik aspektdə aşkarlanır. Mistik intuisiyanın fəlsəfi-ruhani idrak baxımından əhəmiyyəti üç məqamla şərtlənir: birincisi, mistik intuisiya insanın Allahla (mütləqlə) qovuşmasına, onunla vəhdət halının yaşanılmasına səbəb olur; ikincisi, bu intuisiya sübüt tələb etməyən ilahi həqiqətləri anlamağın yeganə yolu kimi aşkarlanır;  üçüncü isə, mistik intuisiya dini təlimlərin yaranmasına ontoloji zəmin rolunu oynayır.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. İntuisiyanın qnoseoloji aspektləri // – Bakı: Fəlsəfə və sosial-siyasi elmlər, Elmi nəzəri jurnal, – 2006. № 1-2, – s. 69-74.

2. İntuisiyanın növləri və təzahür formaları // – Bakı: Elmi axtarışlar, – 2006. № XXI, – s. 135-139.

3. İntuitiv idrakın səviyyələri // – Bakı: Tarix və onun problemləri, – 2006. № 4, – s. 310-311.

4. Yaradıcılıq və intuisiya // – Bakı: Tarix və onun problemləri, – 2011. № 1, – s. 183-188.

5. Интуиция в философии и правовой практике: к истории вопроса // – Тольяти: Тольятинский Государственный Университет, Вектор науки, Серия: Юридические науки, – 2012. № 3 (10), – s. 9-12.

6. Проблема интуиции в философии // Научно-методический и теоретический журнал. Социосфера, – 2012. № 3, – s. 14-17.

7. Интуиция и мышление // Практика коммуникативного поведения в социально-гуманитарных исследованиях. Материалы III международной научно-практической

конференции, – Пенза-Москва-Витебск, – 1-2 декабря 2012 года, – s. 12-15.

8. Siyasi intuisiya probleminə psixoanalitik baxış // “Beynəlxalq turizmə innovatik yanaşmaların siyasi və iqtisadi aspektləri” mövzusunda Respublika səviyyəli elmi praktik konfransın materialları, – Bakı, – 2017, – s. 17-22.

9. Психоаналитический взгляд на политическую интуицию // – Одесса: Politicus Науковий журнал, – 2017. № 6, – s. 6-10.

10. Fəlsəfədə intuisiyaya münasibət // – Bakı: Sosial və humanitar elmlərin müasir problemləri, – 2019. № 23, – s. 15-20.

11. Features of intuitive percertion: from christianity to positivizm // Хуманитарни Балкански изследования, – 2019. Том 3. № 4 (6), – s. 30-34.

12. İntuitiv components in creativity // Хуманитарни Балкански изследования, – 2020. Том 4. № 4 (10), – s. 25-29.

Dissertasiya işinin müdafiəsi 29 mart 2022-ci il tarixində saat $11^{\underline{00}}$ Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş BFD 4.10 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1048, Bakı şəhəri, Zahid Xəlilov, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Dissertasiya və onun avtoreferatının elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi saytında yerləşdirilmişdir

Avtoreferat “24 ” “fevral” 2022-ci il tarixində göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm:

Tiraj: